# Heç kəs unudulmur

## Vətən müharibəsi fədailəri

## 25 oktyabr—Qubadlının işğaldan azad olunan günüdür

Qəbələ rayon Mədəniyyət Mərkəzində "25 oktyabr–Qubadlının işğaldan azad olunması günüdür" başlığı altında dəyirmi masa təşkil edilmişdir. Öncə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Mədəniyyət müəssisələrinin əməkdaşları-nın iştirak etdiyi tədbirdə çıxış edənlər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun 44 gün ərzində göstərdiyi şücaət və xalqımızın bir yumruq kimi birləşərək ordumuza dəstəyindən söhbət açmışlar. Tədbirin sonunda şəhidlərin xatirəsinə həsr edilmiş sərgiyə baxış keçirildi.



## Vətən müharibəsi qazisi evində ziyarət olunub

Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin rəhbərləri Vətən müharibəsi qazisi Nuriyev Bəhram Əliyar oğlunu evində ziyarət etmişlər. Ziyarətçilər qazinin səhhəti və mövcud problemləri ilə maraqlanmışlar. Bəhram Nuriyev qazilərə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir.



## Vətən müharibəsi iştirakçılarının və qazilərinin bir qrupu ilə görüş keçirilib

Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin rəhbərləri ilə Vətən müharibəsi iştirakçılarının və qazilərinin bir qrupunun görüşü keçirilmişdir. Qəbul zamanı qazilər və müharibə iştirakçıları dinlənilmiş, mövcud problemlər müzakirə edilmiş və qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll edilmiş, digərlərinin həlli üçün aidiyyəti üzrə tapşırıqlar verilmişdir. Görüşdə iştirak edən qazilər və müharibə iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.





## Oktyabr ayında şəhidlərimizin doğum günləri

Torpaqlarımızın işğaldan təmizlənməsi, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən vətən müharibəsi şəhidlərindən Əmirvan kənd sakini, gizir Elvin Əbülfəz oğlu Abdurahmanovun (1 oktyabr 1996-cı il), Dızaxlı kənd sakini əsgər Xeyirbəy Cəlil oğlu Səfərçinovun (5 oktyabr 1993-cü il), hərbi həkim, baş leytenant, Qəbələ şəhər sakini Aqşin Faiq oğlu Ənvərlinin (10 oktyabr 1994-cü il), MAXE kəşfiyyatçı Nic qəsəbə sakini Dəmirli Elşən Gündüz oğlunun 15 oktyabr 1998-ci il) doğum günləri rayon icra hakimiyyətinin, təhsil şöbəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidlərin təhsil aldığı məktəb kollektivi, ailə üzvləri və əzizləri tərəfindən anılaraq xatirələri yad edilmişdir. Şəhidlərin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə razılıqlarını ifadə edərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



*Şəhid Elvin Abdurahmanov.*




*Şəhid Xeyirbəy Səfərçinov.*

İnsan var ki, bir əsrlik ömür yaşar, dünyasını dəyişərsə adı da özü kimi torpağa gömülər! İnsan var ki, həmişə bahar ömrü ilə yaddaşlarda, tarixlərdə yaşar. Bax, onlar Vətən fədaisi olan şəhidlərdir.




*Şəhid Aqşin Ənvərli.*



*Şəhid Elşən Dəmirli.*

**Bibixanım İSAYEVA, "Qəbələ"**